

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 102 (21.512)

4 iyun 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın iyunun 3-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 3-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub. Türkiyənin Baş naziri Binəli Yıldırımın Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edilib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iqtisadi əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım mətbuata birgə bəyanatlarla çıxış ediblər.

* * *

İyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayı işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayın açılış mərasimində nitq söyləyib.



## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin lazımi səviyyədə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

**Vasif Talıbov** – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

**Təşkilat Komitəsi sədrinin müavini**

**Əbülfəs Qarayev** – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədri

**Təşkilat Komitəsinin üzvləri**

**Nadir Hüseynov** – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Səyyad Salahlı** – Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Aynur Sofiyeva** – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Əsgər Abdullayev** – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

**Natəvan Qədimova** – Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri

**Məmməd Qəribov** – Naxçıvan Muxtar Respublikasının təhsil naziri

**Azad Cabbarov** – Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri

**İsa Həbibbəyli** – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Dağbəyi İsmayılov** – Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) baş direktorunun müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Urxan Ələkbərov** – Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Vasim Məmmədəliyev** – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

**Vasif Eyvazzadə** – Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi

**Əsgər İsmayılov** – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi

**Vüqar Babayev** – Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 iyun 2016-cı il*

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 3 iyun tarixli Sərəncamı ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları da vardır.

**Fətullayev Zahir Məhərrəm oğlu**

**Mehdiyev Mehdi Bəhlul oğlu**

**Şükürov Telman Murtuza oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

---

## Naxçıvan Muxtar Respublikasının Arxiv İdarəsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi adlandırılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 iyun 2016-cı il*

---

## Şərur rayonunda sığorta işi ilə bağlı maarifləndirici tədbir keçirilib

***İyunun 3-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Şərur Rayon İcra Hakimiyyəti ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirib. Tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov son illərdə sığorta sahəsində rayonda görülmüş işlərdən danışıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov tədbirdə çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi sahəsində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Bildirilib ki, əhali gəlirlərinin artması, iqtisadi fəallığın yüksəlməsi, öz növbəsində, sığorta münasibətlərinin də inkişafını şərtləndirir.

Hikmət Əsgərov baş vermiş ayrı-ayrı sığorta hadisələrindən konkret misallar gətirərək vaxtında sığortalanmağın üstünlüklərini diqqətə çatdırıb.

"Ötən müddətdə Şərur rayonunda da müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub", – deyən baş direktor rayonda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə həyata keçirilən tədbirlərdən və qarşıda duran vəzifələrdən danışıb. Diqqətə çatdırılıb ki, rayonda icbari qaydada sığorta edilməli olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortalanan hər bir sığorta obyekti sığortaya cəlb edilməlidir.



Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, bu il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib. Tədbirdə bununla əlaqədar vurğulanıb ki, bu sahədə də fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan işlər genişləndirilməlidir. Kənd təsərrüfatı məhsullarının, ev əmlakının sığortası, fərdi qəza sığortası və digər könüllü sığortalar, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir.

Tədbirdə Şərur Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin rəisi Elnar Mirzəliyev, Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Şakir Ağalarov rayonda icbari sığortaların vəziyyəti barədə məlumat veriblər.

Tədbirə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurub.

✍ **Əli CABBAROV**

*5 iyun su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günüdür*

# Muxtar respublikada müasir meliorasiya və su təsərrüfatı sistemləri yaradılmışdır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 may tarixli Sərəncamına əsasən hər il iyunun 5-i ölkəmizdə "Su təsərrüfatı və meliorasiya işçiləri günü" kimi qeyd edilir.***

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçmiş, Azərbaycanda böyük su anbarları, hidroqovşaqlar, nasos stansiyaları tikilib istifadəyə verilmiş, suvarılan torpaqların sahəsi xeyli artmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında da yeni meliorasiya və irriqasiya sistemləri yaradılmış, Araz və Arpaçay kimi böyük su anbarları tikilmişdir. 1993-cü ildə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, kənd təsərrüfatının inkişafı, meliorativ tədbirlərin genişləndirilməsinə diqqət artırılmışdır. Nəticədə, iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatı da özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Naxçıvan Muxtar Respublikasında da meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri, həmçinin içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, müasir texnikalar alınıb istifadəyə verilmiş, rayon suvarma sistemləri idarələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarına əsasən suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir.



Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafına şərait yaradan əsas amillərdəndir. Son illər muxtar respublikada müasir irriqasiya sistemləri qurularaq istifadəyə verilmişdir. Belə ki, Sədərək rayonunda əkinəyararlı torpaqların dayanıqlı suvarma suyu ilə təmin olunması üçün tikilən yeni nasos stansiyası və suvarma şəbəkəsinin hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi yenidən əkin dövriyyəsinə qatılmışdır. Kəngərli rayonu ərazisində torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün Uzunoba gölündən Böyükdüz kəndinin ərazisinə suvarma suyunun verilməsi məqsədilə 16,4 kilometr qoşa boru xətti çəkilərək nasos stansiyası tikilmiş, bunun nəticəsində 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Şərur rayonunun Xanlıqlar, Ələkli və Vərməziyar kəndlərinə suvarma suyunun verilməsi üçün Arpaçay sol sahil kanalından 3 kilometr yeni boru xətti çəkilmiş, 590 hektar əkin sahəsi suvarma suyu ilə təmin olunmuşdur. Ordubad rayonunun "Şıxı yurdu" adlanan ərazisindən 4,6 kilometr məsafədə kanal çəkilərək Ordubad çayına su verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Bənəniyar gölündən Güznüt, Çeşməbasar, Nehrəm kəndlərinin torpaq sahələrinə suvarma suyunun itkisiz verilməsi üçün 8,3 kilometr yeni suvarma boru xətti çəkilmişdir.



Muxtar respublikada mütərəqqi suvarma sistemlərinin qurulması da diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalı üzərində Babək rayonunun Nehrəm kəndində 1170, Culfa rayonunun Bənəniyar kəndində 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar sahəni əhatə edən 241,5 kilometrlik qapalı suvarma şəbəkəsi tikilmiş, 77,5 kilometr məsafədə yeni drenaj xətti çəkilmiş, 6,5 kilometrlik kollektor bərpa olunmuşdur. Kəngərli rayonunun Kərki və Xok kəndlərində 200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi, Böyükdüz kəndi ərazisində isə 400 hektarlıq qapalı suvarma və kollektor-drenaj şəbəkəsi bərpa olunmuşdur. Hazırda Böyükdüz və Xok kəndlərinin 107 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasında nasos stansiyalarından və subartezian quyularından geniş istifadə olunur. Son illər muxtar respublikada 51 subartezian quyusu və 7 nasos stansiyası tikilərək istismara verilmişdir. Hazırda muxtar respublikada 102 nasos stansiyası və 882 subartezian quyusu vardır.

Bu gün qarşıda duran əsas vəzifələrdən biri də torpaqlarda meliorativ tədbirlərin görülməsidir. Şoranlaşmaya və bataqlaşmaya meyilli torpaq sahələrinin müəyyənləşdirilməsi, torpaq mülkiyyətçiləri arasında mütərəqqi əkin və suvarma metodlarından istifadə ilə bağlı maarifləndirici söhbətlərin aparılması diqqət mərkəzindədir. Aid təşkilatlarla birlikdə bu sahədə işlər davam etdirilmiş, şoranlaşmış və bataqlaşmış sahələr müəyyən edilərək 223 kilometr kollektor, 14 kilometr açıq drenaj kanalı təmir olunmuş, yeni drenaj xətti çəkilmişdir. Həmçinin daşqın və selə qarşı mübarizə məqsədilə muxtar respublikanın çay və sellarında 76,1 kilometr istiqamətləndirici bənd salınmış, Araz çayında 54 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır.

Suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən də geniş istifadə olunur, onların bərpası diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikanın şəhər, rayon və kəndlərində 332 kəhriz istismar olunur. Son illər muxtar respublikada 19 kəhriz təmir edilərək istismara verilmişdir. Hazırda 6 kəhrizdə təmir işləri davam edir. Kəhrizlərin bərpa edilməsi su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də əhalinin içməli suya olan tələbatını ödəmək, insanları sağlam və ekoloji cəhətdən təmiz su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür, kaptajlar bərpa olunur, yeni içməli su xətləri çəkilir, mənzillər keyfiyyətli içməli su ilə təmin olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksinin, eləcə də Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi bu mənada mühüm əhəmiyyətə malikdir. Bu sahədə həyata keçirilən tədbirlər çərçivəsində Naxçıvan şəhərində 224,8 kilometr müxtəlif diametrli içməli su və 219 kilometr kanalizasiya xətlərinin tikintisi aparılmış, mənzillər fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunmuşdur. Bu işlər təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmır. Muxtar respublikanın rayonlarında da içməli su və kanalizasiya şəbəkələri yenidən qurulur.

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi bundan sonra da meliorasiya və irriqasiya sistemlərinin lazımi səviyyədə istismarının təşkili, suvarılan torpaqların meliorativ vəziyyəti və su təminatının yaxşılaşdırılması sahəsində fəaliyyətini davam etdirəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*5 iyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür*

# Naxçıvanda ətraf mühitə qayğı ilə yanaşılır



***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli qərarına əsasən hər il iyunun 5-i "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü" kimi qeyd olunur.***

Azərbaycanda ekologiyaya dövlət səviyyəsində münasibətin göstərilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rəhbərliyi ilə ekoloji problemlərin həlli istiqamətində mühüm qərarlar qəbul edilmiş, ictimaiyyətin diqqəti ətraf mühitin mühafizəsinə yönəldilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmışdır. ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür",*** – deyən ümummilli lider ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra da ekoloji problemlərin həlli diqqətdə saxlanılmış, bu sahədə dövlət siyasətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu sahənin inkişafına xüsusi diqqət göstərir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda ekoloji məsələlərə dair müşavirələrin keçirilməsi, beynəlxalq ekologiya sərgilərinin təşkil olunması bu sahəyə göstərilən diqqətin real ifadəsidir. Azərbaycan planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, qorunması və bərpası məqsədilə 20-dən çox ekoloji konvensiyalara qoşulmuşdur.

Naxçıvan Muxtar Respublikasında da əlverişli ekoloji mühitin yaradılması məqsədilə dövlət proqramları qəbul edilmiş, ardıcıl tədbirlər görülmüşdür. Bu gün muxtar respublikada həyata keçirilən ekoloji tədbirlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.

Muxtar respublika ərazisində təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Meşələrin qorunması ilə yanaşı, yeni yaşıllıqların salınması istiqamətində də mühüm işlər görülür. Bu tədbirlərin əsası ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Həmin illərdə blokada çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində muxtar respublikada iməciliklərin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılmışdır. Son illər muxtar respublikada 14 min hektardan çox sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, min hektardan artıq meyvə bağları salınmış, yaşıllıqların sahəsi 10 dəfədən çox artmışdır. Yaşıllaşdırma tədbirlərinin yalnız kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə aparılması torpaqların münbitliyinin bərpa olunmasında da xüsusi amilə çevrilmişdir.

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bu da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması hesabına mümkündür. Muxtar respublikada bu sahədə də mühüm tədbirlər görülmüş, xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsi xeyli genişlənmişdir. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Bundan başqa, ölkə başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da əlverişli şərait yaratmışdır.

Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. Naxçıvan ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, ekoloji maariflәndirmə tədbirlərinin intensiv hal alması fauna və flora müxtəlifliyinin qorunmasına və zənginləşdirilməsinə öz müsbət təsirini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı Kitab" çap edilmişdir.

Böyük təbiətşünas alim, akademik Həsən Əliyev vaxtilə deyirdi ki, ***"Təbiətin keşiyini çəkmək üçün söz silahının gücündən istifadə etmək lazımdır".*** Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu istiqamətdə də ardıcıl tədbirlər həyata keçirilir, teleradio verilişləri və qəzet materialları hazırlanır, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Muxtar respublikada təbiəti mühafizə tədbirləri bundan sonra da diqqət mərkəzində saxlanılacaq, ekoloji problemlərin həllinə və yaşıllıqların qorunmasına diqqət artırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Türk dünyasının iki görkəmli şəxsiyyətinə həsr olunan konfrans

*Türkiyənin görkəmli hərb və dövlət xadimi Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir iyunun 2-də Naxçıvan Muxtar Respublikasına gəlib. Səfər çərçivəsində Timsal Qarabəkir Naxçıvan Dövlət Universitetində "Əsrin sınaqlarında ədib və paşa – Hüseyn Cavid və Kazım Qarabəkir" mövzusunda keçirilən konfransda iştirak edib.*





Konfransı giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq ali təhsil ocağının qonaqlarını salamlayıb, Timsal xanımı Naxçıvan Dövlət Universitetində görməkdən məmnunluğunu ifadə edib.

Tədbirdə Kazım Qarabəkir Vəqfinin sədri Timsal Qarabəkir fotoslaydlar vasitəsilə atasının mübariz həyatı haqda məlumat verib. O deyib ki, Kazım Qarabəkirin həyatı və mücadiləsi Osmanlı və Türkiyə Cümhuriyyəti tarixinin ən önəmli səhifələrini əhatə edir. Onu qocaman Osmanlının son illərində baş verən hadisələrdə, Qurtuluş Savaşının mərkəzində, türk millətinin daxili və xarici düşmənlərə qarşı apardığı mücadilənin önündə görürük və adı Qurtuluş Savaşının bayraqdarı Mustafa Kamal Atatürklə birgə çəkilir. Ancaq bu böyük insan yalnız bacarıqlı bir sərkərdə, qalib komandan deyil, həm də dövrünün tərəqqipərvər ziyalısı, maarifçisi, xeyriyyəçisi olub.

Timsal Qarabəkir vurğulayıb ki, Kazım Qarabəkir Paşa yalnız Anadolu ellərində deyil, bütün Türk dünyasında hörmətlə anılan qəhrəmandır. XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı bölgələri erməni daşnakları tərəfindən talan edilir, yerlərdə müsəlman əhaliyə qarşı böyük qırğınlar törədilirdi. Bu baxımdan Naxçıvanın vəziyyəti daha ağır idi. Azərbaycanın əsas ərazisindən ayrı düşmüş Naxçıvanda ermənilərin törətdiyi soyqırımı nəticəsində təkcə 1918-1921-ci illərdə yüzlərlə kənd dağıdılmış, 80 minə yaxın dinc müsəlman əhali qətlə yetirilmişdi. Kazım Qarabəkir Paşa yardıma gəlmiş, Naxçıvan əhalisi onu böyük ruh yüksəkliyi ilə qarşılamışdı. Türk bayrağının qaldırılması münasibətilə təşkil olunmuş izdihamlı mitinqdə çıxış edənlərin hər biri xilaskar türk ordusuna və onun yenilməz komandanı Kazım Qarabəkir Paşaya sonsuz sevgilərini çatdırmışdılar. Kazım Qarabəkir Paşa təcili olaraq Naxçıvanda nizami ordunun yaradılması işinə başlamışdı.

Naxçıvanda qonaqpərvərliklə qarşılanmasından böyük sevinc hissi keçirdiyini dilə gətirən Timsal Qarabəkir onu da qeyd edib ki, Azərbaycanda, ələlxüsus Naxçıvan torpağında atasının adının xüsusi ehtiramla, xilaskar sərkərdə olaraq xatırlanması qürurvericidir. Kazım Qarabəkir Paşa doğmaları, yaxınları və müasirləri tərəfindən həm də ailəsinə, əqidəsinə, inamına bağlı duyğusal bir insan olaraq xatırlanır. İllərlə hərbin sərt tələblərinə uyğun olaraq şanlı bir əsgər həyatı yaşamağına baxmayaraq, onun sevdiyi insanlarla davranışına, münasibətlərinə heyran qalmamaq mümkün deyil.

Çıxışının sonunda Timsal Qarabəkir Kazım Qarabəkir Vəqfinin plaketini Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmova təqdim edib.

Sonra Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Erşenin, "Turan Cavid Qadın Mərkəzi" İctimai Birliyinin sədri Sevda Cəfərovanın, Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimlinin, Qars Qafqaz Universitetinin nümayəndələrindən Oktay Qızılqaya və Cem Tüysüzün çıxışları olub.

Çıxışlarda Kazım Qarabəkir və Türk dünyasının böyük şairi Hüseyn Cavid arasında Naxçıvan Rüşdiyyə məktəbində yaranan dostluq münasibətlərindən, görkəmli sərkərdə və dahi ədibi birləşdirən ideyalardan, hər iki şəxsiyyətin əsrin sınaqlarına qarşı apardığı mübarizədən söhbət açılıb. Qeyd edilib ki, bəşəriyyət tarixi çox sərkərdələr görüb. Ancaq Kazım Qarabəkirin şəxsində tamam ayrı-ayrı sənət sahiblərinə xas xüsusiyyətlər cəmləşdiyindən, o, bütün bu işlərin öhdəsindən qibtəolunacaq dərəcədə bacarıqla gələ bilib. Türk dünyası üçün Kazım Qarabəkir müharibə sənətinin, Hüseyn Cavid isə söz sənətinin zirvəsində dayanır. Hər iki şəxsiyyətin ən böyük arzusu xalqını və ölkəsini azad görmək olub. Bu gün onların arzuları gerçəkləşib.

Konfransın bədii hissəsində tələbələrin ifasında o dövrün həqiqətlərindən bəhs edən səhnələr nümayiş etdirilib, sarsılmaz Azərbaycan-Türkiyə dostluğunu tərənnüm edən mahnılar oxunub.

Konfransdan sonra qəzetimizə müsahibə verən Timsal Qarabəkir deyib ki, burada həmsöhbət olduğu hər bir insan Kazım Qarabəkiri hörmət və ehtiramla yada salır, onun bu torpaqların erməni işğalçılarından təmizlənməsi yolunda xidmətlərini yüksək qiymətləndirir. Naxçıvanın ən görkəmli yerində onun adını daşıyan möhtəşəm bir məscidin istifadəyə verilməsi, buranın qısa zamanda əhalinin axın etdiyi ibadətgaha çevrilməsi bu yerin insanlarının Kazım Qarabəkirə olan sonsuz sevgisindən xəbər verir.

Konfransdan sonra universitetin tələbələrindən İnci Məmmədzadə, Musa Nəcəfov və Ləman Vəliyeva ilə həmsöhbət olub konfrans haqda təəssüratlarını öyrəndik. Onlar bildirdilər ki, Kazım Qarabəkir Vəqfinin sədri Timsal Qarabəkirin nümayiş etdirdiyi fotoşəkillər, verdiyi məlumatlar o dövrdə baş verən hadisələr haqda tələbələrdə dolğun təəssürat yaradıb.

✍ **Səbuhi HÜSEYNOV**

# İdmançılar muzeyləri ziyarət ediblər



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Sərəncama uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının məşqçi-müəllimləri, idmançıları da muzeylərimizi ziyarət edirlər.***

Ötən gün Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Güləş Federasiyasının üzvləri Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyində, Boks Federasiyasının üzvləri Dövlət Bayrağı Meydanı və Muzeyində, Basketbol Federasiyasının üzvləri Cəmşid Naxçıvanskinin ev-muzeyində olublar.

Heydər Əliyev Muzeyində idmançılara məlumat verilib ki, bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və 10 may 1999-cu ildə fəaliyyətə başlayıb. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, görkəmli dövlət xadiminin istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ümummilli liderimizin təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Həmin materiallar ulu öndərimizin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, dahi rəhbərin mənalı həyatı, zəngin və çoxşaxəli ömür yolu barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayır.

Boks Federasiyasının idmançıları və məşqçiləri Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət ediblər. Ziyarətçilərə bildirilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

1990-cı illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında muzeydə ətraflı məlumatlar yerləşdirilib.

Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət edən Basketbol Federasiyasının üzvlərinə muzey haqqında ətraflı məlumat verilərək bildirilib ki, bu muzey Kəngərlilər nəslinin nümayəndəsi, Azərbaycan atıcı diviziyasının komandiri, general Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illiyi ilə əlaqədar 1981-ci ildə vaxtilə onun yaşadığı evdə yaradılıb. Muzeydə Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmalar, şəxsi və ev əşyalarından ibarət 6 minə yaxın eksponat qorunub saxlanılır. Bu eksponatlardan 1000-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Onlar içərisində Cəmşid Naxçıvanskinin ilk hərbi təhsil illərinə aid fotoşəkillər, Birinci Dünya müharibəsinə aid sənədlər, 1918-1920-ci illərdə milli orduda hərbi xidmətləri, 1921-1931-ci illərdə Azərbaycan ilk milli atıcı diviziyasına komandirliyi dövrünə aid fotoşəkillər, eləcə də 1931-1933-cü illərdə Frunze adına Hərbi Akademiyada təhsil aldığı və 1933-cü ildən hərbi pedaqoji fəaliyyətə başladığı illərə dair qiymətli sənədlər var.

Qeyd edək ki, muzeyləri 100-dən çox idmançı ziyarət edib.

✍ **Ceyhun MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında keçirilən tədbirlər davam etdirilir.***

# *"Gənclər ətraf mühitin çirklənməsinə yox deyir"* devizi altında tədbirlər keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında "Ətraf mühiti necə qoruyuruq?" mövzusunda diskussiya keçirilib.

Tədbirdə AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Tariyel Talıbov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası zəngin bitki örtüyü, heyvanlar aləmi və təbii sərvətlərə malik olan diyardır. Bu baxımdan burada Nəbatat bağının yaradılması əhəmiyyətli və mühüm addımdır. Bu bağın yaradılmasında əsas məqsəd insanların Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmiş bəzi bitki növləri mövcuddur.

Gənclərə məlumat verilib ki, Nəbatat bağında müxtəlif ölkələrin təbiətinə xas bir çox bitki və ağac növləri var. Bununla birlikdə Azərbaycan florasına aid bir çox bitki və ağac növləri də Nəbatat bağının qiymətli sərvətləridir. Burada yerli meyvə genofonduna daxil olan alma, armud, üzüm, ərik sortları yetişdirilir və qorunur.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

Məlumat üçün bildirək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Rəssamlar Birliyinin təşkilatçılığı ilə "Naxçıvan" Universitetində "Ətraf mühit və biz" mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə keçirilib. Sərgi-müsabiqəyə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Musiqi Kollecinin və Naxçıvan Dövlət Texniki Kolleci tələbələrinin 20-yə yaxın rəsm əsəri çıxarılıb.

Tədbirdə "Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev, Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək muxtar respublikada ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən danışıb, bu sahədə tələbə-gənclərin üzərinə düşən vəzifələrdən bəhs ediblər. Qeyd olunub ki, bu sərgiyə çıxarılan rəsm əsərləri tələbə gənclərin təbiətimizə baxışının məhsuludur.

Sonda qaliblərə diplomlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birgə “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın keçirilməsini davam etdirir.*

## “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın növbəti mərhələsi keçirilib



Müsabiqənin keçirilməsində məqsəd milli mədəniyyətimizin və incəsənətimizin təbliğ edilməsi, xalq mahnı və təsniflərinin ifaçılığı üzrə istedadlı şəxslərin aşkara çıxarılması, istedadlı ifaçıların yaradıcılıq potensialının düzgün istiqamətləndirilməsidir. Müsabiqənin əsas turunun birinci mərhələsinə aprel ayının 29-da Naxçıvan şəhərində start verilib. Əsasnaməyə əsasən, müsabiqənin təşkilat komitəsi və muxtar respublikanın tanınmış incəsənət xadimlərindən ibarət münsiflər heyəti yaradılıb. Müsabiqədə iştirak edənlərə yaş həddi və təhsil məhdudiyyəti qoyulmayıb. Müsabiqədə münsiflər heyətinin üzvü olan müəllimlərin öz tələbələrinə səs verməsi məhdudlaşdırılıb. Müsabiqənin gedişində konsertə qədər iştirakçılar həftədə iki dəfə olmaqla peşəkar müəllimlərin rəhbərliyi altında ansamblla məşq edirlər. Əsas tur ayda bir dəfə olmaqla, 7 mərhələdə və hər mərhələ növbə ilə muxtar respublikanın bir rayonunda keçiriləcəkdir. Müsabiqənin yekun konsertinin noyabr ayında Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulur. Qaliblər yekun konsertində mükafatlandırılacaqlar.

Dünən “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın əsas turunun növbəti mərhələsi Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki mədəniyyət evində keçirilib.

Tədbirdən əvvəl aparıcılar bildiriblər ki, xalq mahnı və təsnifləri Azərbaycan xalqının həyatını, mübarizəsini, bəşəri duyğularını, sevinc və kədərini əks etdirir. Belə musiqi incilərimiz xalqımızın mənəvi sərvətlərinin ayrılmaz hissəsinə çevrilib.

Aparıcılar müsabiqənin münsiflər heyətini tamaşaçılara təqdim ediblər. Sonra əsas turun birinci mərhələsində iştirak etmiş ifaçılar haqqında qısa məlumat verilib, onların I mərhələdə topladıqları ballar bir daha elan olunub.

Sonra xalqımızın ruhundan süzülüb gələn, qəlbləri riqqətə gətirən təsniflər səsləndirilib. Tarda Sərxan Abdullayevin, kamançada Nurlan Nuriyevin, udda Cəlil İsmayılovun, qanunda Günel Fərəcovanın, balabanda Nihad Quliyevin, nağarada Mahir Rüstəmovun müşayiəti ilə müsabiqə iştirakçıları Ataxan Quliyev (Naxçıvan şəhəri) “Müxalif təsnifi”ni, Məhərrəm Quliyev (Culfa rayonu, Bənəniyar kəndi) “Rast təsnifi”ni, Fuad Qədimov (Sədərək rayonu, Qaraağac kəndi) “Rast təsnifi”ni, Rəşad Nəcəfov (Culfa şəhəri) “Şur təsnifi”ni, Əsmər Hüseynova (Ordubad şəhəri) “Qatar təsnifi”ni, Təyyar Mədətli (Şahbuz rayonu, Kolanı kəndi) “Qatar təsnifi”ni, Fərman Allahverdiyev (Şərur rayonu, Tənənəm kəndi) “Şikəsteyi-fars təsnifi”ni, Bəhruz Quliyev (Culfa rayonu, Saltaq kəndi) “Zabul təsnifi”ni, Araz Cabbarov (Şahbuz rayonu, Keçili kəndi) “Dilkeş təsnifi”ni, İlham Məmmədov (Kəngərli rayonu, Böyükdüz kəndi) “Bayatı-İsfahan təsnifi”ni, Elmar Qasımov (Naxçıvan şəhəri) “Şur təsnifi”ni, Yusif Hacıyev (Naxçıvan şəhəri) “Segah təsnifi”ni, Mürsəl Tağılı (Şahbuz rayonu, Yuxarı Qışlaq kəndi) “Mirzə Hüseyn təsnifi”ni, Səfər Cəfərov (Babək rayonu, Nehrəm kəndi) “Bayatı-kürd təsnifi”ni, Aqil Adilzadə (Culfa rayonu, Bənəniyar kəndi) “Şur təsnifi”ni ifa ediblər.

Qeyd edək ki, əsas turun üçüncü mərhələsinin Ordubad rayonunda keçirilməsi nəzərdə tutulub.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin may ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 995 | 59,7 | 60,0 | 100,5 |
| 2. | Şahbuz rayonu | 398 | 23,9 | 24,0 | 100,4 |
| 3. | Culfa rayonu | 964 | 57,8 | 58,0 | 100,3 |
| 4. | Kəngərli rayonu | 543 | 32,6 | 32,7 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 2870 | 172,2 | 172,2 | 100,0 |
| 6. | Şərur rayonu | 1620 | 97,2 | 97,2 | 100,0 |
| 7. | Babək rayonu | 1590 | 95,4 | 95,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 300 | 18,0 | 18,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 25228 | 1513,7 | 1519,4 | 100,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **34508** | **2070,5** | **2076,9** | **100,3** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 34 milyon 508 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 70 min 500 manat olmuş, cəmi 2 milyon 76 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,3 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin may ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Babək rayonu | 1047016 | 104702 | 105052 | 100,3 |
| 2. | Ordubad rayonu | 449764 | 44976 | 45110 | 100,3 |
| 3. | Şahbuz rayonu | 320580 | 32058 | 32148 | 100,3 |
| 4. | Şərur rayonu | 791794 | 79179 | 79356 | 100,2 |
| 5. | Culfa rayonu | 416652 | 41665 | 41746 | 100,2 |
| 6. | Kəngərli rayonu | 350556 | 35056 | 35097 | 100,1 |
| 7. | Sədərək rayonu | 104430 | 10443 | 10454 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 1283752 | 128375 | 128470 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3247912 | 324706 | 380839 | 117,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **8012456** | **801160** | **858272** | **107,1** |

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət statistika orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyənlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytına ***(www.dqmk.nmr.az)*** daxil olmaqla elektron müraciət formasını doldurmalı və tələb olunan sənədləri 6 iyun 2016-cı il tarixdən 20 iyun 2016-cı il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) şəxsən təqdim etməklə elektron ərizələrini (həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək) təsdiq etdirməlidirlər.

**Vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- şəxsiyyəti təsdiq edən sənəd;
- ali təhsil haqqında sənədlər (Ali təhsil müəssisələrini 2016-cı ildə bitirən namizədlər ali təhsil müəssisəsini bitirmələri haqqında arayış təqdim edə bilərlər);
- əmək kitabçası və ya surəti (olduğu təqdirdə);
- 1 ədəd ağ fonda rəngli fotoşəkil (3x4 sm ölçüdə)

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

**Qeyd:** *Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.*

***Əlavə məlumat almaq üçün: e-mail: dqmk@nakhchivan.az***
***Telefon: 545-65-71***

## Güləşçimiz ölkədaxili birinciliyin qalibi olub

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Məmmədov ölkədaxili birinciliklərdə qazandığı uğurlara daha birini əlavə edib. Belə ki, Bakı şəhərində 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin açıq birinciliyində Naxçıvan güləş məktəbinin yetirmələri də qələbə qazanmaq uğrunda mübarizə aparıblar. Ən yüksək nəticəni 34 kiloqram çəki dərəcəsində Abbas Məmmədov qazanıb. O, öz çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək yarışın baş mükafatının sahibi olub.

Abbas Məmmədova təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Yumurta alarkən diqqətli olun!

*Yumurta qida rasionumuzda geniş istifadə olunan yeyinti məhsullarından olduğuna görə istehlakı zamanı onların keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi aktuallıq kəsb edən məsələlərdəndir. Yumurta alarkən ehtiyatlı olmaq lazımdır. Çünki qida rasionumuzun əsasını təşkil edən yumurta keyfiyyətsiz olan zaman orqanizm üçün təhlükəli olur.*

Yumurta qidalılıq dəyərinə görə yüksəkkeyfiyyətli və orqanizmdə 97-98% mənimsənilən ərzaq məhsuludur. Yumurtanın tərkibində tam dəyərli zülallar, yağlar, lesitinlər, vitaminlər və mineral maddələr var. Yumurta maddələr mübadiləsinin normal getməsinə müsbət təsir edir, sinir sistemini möhkəmləndirir, infeksion xəstəliklərə qarşı müqaviməti artırır, uşaqları isə raxit xəstəliyindən qoruyur. Ortayaşlı adam fizioloji normaya əsasən ildə 260 ədəd (3 gündə 2 ədəd) yumurta yeməlidir.

Yumurta 0+20º C temperaturda, 85-88 faiz nisbi rütubətdə saxlanmalıdır. Pərakəndə ticarət şəbəkələrində optimal şəraitdə yumurtanın saxlanılma müddəti yaz-yay mövsümündə 3 gün, payız-qış mövsümündə 6 gündür.

Yumurtanın keyfiyyəti və növü onun təzəliyi və kütləsinə əsasən təyin edilir. Saxlama müddətindən və keyfiyyətindən asılı olaraq yumurta birinci və ikinci növlərə ayrılır.

Çeşidləndiyi gündən etibarən ən çoxu 30 gün saxlanılan yumurtalar birinci, 30 gün keçəndən sonra soyuducularda 180 gündən çox olmayaraq saxlanılan yumurtalar ikinci növ yumurta hesab edilir.

Uzun müddət saxlanılması nəzərdə tutulmuş yumurtaların yuyulması məsləhət görülmür. Yumurta artıq saxlandıqca, onun içərisindəki hava kamerası da böyüyür. İstehlakçılar yumurtanı günə tutaraq onun təzə və ya köhnə olduğunu müəyyən edə bilərlər.Yumurtanın içərisində hava boşluğunun hündürlüyü yumurtanın hündürlüyünün 1/3 hissəsindən artıq olarsa, bu, həmin məhsulun təzə olmadığını göstərir. Yumurtanı aşağıkeyfiyyətli hala gətirən digər nöqsanlar yumurtaların sınıq (çatlamış, əzik) olması, lakin axmaması və yumurtanın kənar, lakin tez rədd edilə bilən qoxuya malik olması kimi nöqsanlardan ibarətdir. Sarısı və ağı qismən qarışmış yumurta, kənar qoxusu olan yumurta, qabığının altında səthinin 1/8 hissəsini təşkil edən bir, yaxud bir neçə tünd ləkəsi olan və sarısı quruyub qabığına yapışmış yumurtalar keyfiyyətsiz sayılır.

Qablaşdırılmış hər taraya yarlıq vurulur. Yarlıqda istehsalçının adı və ünvanı (hüquqi ünvanı), qablaşdırılma tarixi (yumurtlanan gün), ticarət markası, taranın nömrəsi, yumurtanın növü haqqında məlumat qeyd olunur.

Günəş şüalarının altında və 20ºC-dən yüksək temperaturda saxlanan yumurtaları almayın. Nəzərə alın ki, zəruri şəraitdə və temperaturda saxlanmayan bu məhsullar insan orqanizmi üçün təhlükəlidir və ciddi fəsadlar törədə bilər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Qafarov Əli Salman oğlunun adına olan 0200180052 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 437